Dövlət qayğısı



# Mədəniyyət xalqların kimliyinin güzgüsüdür

**Müstəqilliyimizin bərpasından sonra başqa sahələrdə olduğu kimi, mədəniyyət sahəsindəki dinamik inkişaf, əldə olunan uğurlar da xalqımızı bütün dünyaya tanıtdırır və sevdirir.**

Xüsusi olaraq qeyd olunmalıdır ki, bu yüksəlişin bünövrəsində Ulu Öndər Heydər Əliyevin mədəniyyət sahəsində başladığı və uğurla həyata keçirdiyi islahatlar dayanır. Həyata keçirilən bu islahatlar nəticəsində Azərbaycan mədəniyyəti inkişaf tarixinin ən parlaq mərhələsinə qədəm qoyub.

Dünya təcrübəsi göstərmişdir ki, ölkələr təkcə iqtisadi, hərbi, siyasi gücü ilə deyil, həm də mədəniyyəti ilə tanınır. Bütün bunlar bir daha onu göstərir ki, mədəniyyət xalqların kimliyinin güzgüsü və göstəricisidir. Ümummilli Lider mədəniyyətin inkişafından, gərəkliliyindən danışarkən çox müdrikcəsinə demişdir: "Xalq bir cox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir".

Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə xalqının tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sonsuz məhəbbət bəsləyən Ulu Öndər demişdir: "Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir".

Ulu Öndərin böyük uzaqgörənliklə söylədiyi dəyərli sözlər bu günə qədər və bu gündən sonra mədəniyyət sahəsində görülmüş və görüləcək işlərin məqsəd və məramını açıq şəkildə ortaya qoymuşdur. Mədəniyyətimizin inkişaf etdirilməsi üçün bütün zəruri addımlar atılmış, istiqamətlər göstərilmişdir.

Ulu Öndərin siyasi kursunu layiqincə inkişaf etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində Azərbaycan mədəniyyəti özünün ən yüksəliş dövrünü yaşayır. Sahibi olduğumuz milli mədəni sərvətlərin təbliğinə çox böyük üstünlük verilir. Elə buna görə də böyük uğurlar qazanılır, bir-birindən dəyərli nailiyyətlər əldə olunur. Milli mədəniyyətin qorunması və inkişafı istiqamətində atılan uğurlu addımlar isə milli dövlətçiliyin möhkəmləndirilməsinə böyük töhfələr verir.

Mədəniyyətimizin qorunması və inkişaf etdirilməsi istiqamətində dövlətin dəstəyi ilə çox mühüm işlər görülür. Milli bayramlarımız dövlət səviyyəsində qeyd edilir, muzeylərimiz bərpa olunur və yeniləri yaradılır. Gənclərimizin mədəniyyətimizə olan sevgi və diqqətlərini artırmaq məqsədilə müntəzəm olaraq müxtəlif mövzularda müsabiqələr keçirilir. Azərbaycanın dövlət quruculuğu ilk növbədə milli dəyərlərə söykənir. Amma bəşəri dəyərlər də unudulmur. Bu dəyərlərə daim diqqət və hörmətlə yanaşılır. Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinə qapıları daim açıqdır. Yer üzündə yaşayan xalqların mədəniyyətlərinin müxtəlifliyi insan birliklərinin ən böyük dəyəridir. İnsan həm də mədəniyyət vasitəsi ilə özünün müstəqil fərd, cəmiyyətin üzvü, bütövlülüyün bir hissəsi olduğunu yaxından dərk edir.

Dövlət başçımızın qayğısı sayəsində mədəniyyətimizin maddi-texniki bazası xeyli dərəcədə möhkəmlənmiş, milli-mənəvi dəyərlərimizin qorunmasına diqqət artmışdır. Azərbaycan mədəniyyətinin dünyaya inteqrasiyası istiqamətində də mühüm tədbirlər həyata keçirilmiş və böyük uğurlar qazanılmışdır. Son illər Azərbaycan mədəniyyətlərarası dialoq sahəsində çox mühüm tədbirlərin təşkilatçısı və iştirakçısı olmuşdur. Onu da xüsusi olaraq qeyd etmək lazımdır ki, belə dialoqların və forumların keçirilməsi mədəniyyətimizin beynəlxalq əlaqələrinə çox güclü təsir göstərir, dünya Azərbaycanı, onun daim inkişaf etməkdə olan mədəniyyətini daha da yaxından izləyir. Bunlar isə müstəqil Azərbaycanı dünyaya sivil bir ölkə kimi tanıdır.

Mədəni həyatımızın inkişafında və zənginləşməsində Prezident İlham Əliyevin sərəncamları ilə təsdiq olunmuş dövlət proqramlarının böyük əhəmiyyəti var. Bu proqramların qəbul olunması bir daha onu göstərir ki, ölkəmiz milli mədəniyyətimizin qorunmasını, təbliğini və gələcək nəsillərə çatdırılmasını inkişafımızın prioritetlərindən hesab edir.

Ölkəmiz bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına ev sahibliyi edəcək. Bu tədbir həm də böyük bir mədəniyyət hadisəsidir. İnanırıq ki, beynəlxalq tədbir həm də Azərbaycan mədəniyyətinin təbliğində, inkişafında, həmçinin beynəlxalq aləmə inteqrasiyasında çox mühüm rol oynayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan. - 2024.- 11 avqust (№ 170).- S.8.